**UDC:** 070.
**LBC:** 76.01; 76.02
**MJ №** 273
10.33864/2617-751X.2025.v8.i2.129-142

# The Thematic Scope of Classical Azerbaijani Publicism

**Rahila Kasamanli***

**Abstract.** As many other kinds of literary and artistic art, publicism also has classic essence and becomes the fact that the time addresses to. According to the observations, at the end of XIX and in the beginning of the XX century the Azerbaijani publicism carried out classic character for some important direction and for that reason has become the fact of circulation of public and political sense. If we look at the necessity factor of classic publicism of our contemporary period, we face with the fact that the main fear for the soviet ideological creative system and prohibitions and realizing the national libration ideas was the pubicistic creative work. The circulating of publicism after a long passed period again depends on political, social and public condition. The Azerbaijani classic publicism in a new period faced with such political, social and public condition. This publicism played an important role in the realization of a new independent idea. And we can find it in the bases of printing of books and examples of classic publicism again. The majority of our contemporary publicists have accepted the richness of this subject, the features of literary mastership, events, the exactness to the facts and the principles of loyal relation and they use these principles in their creative works.

**Keywords:** national authority, democratic development freedom, political, press

* PhD in Philology,
Lecturer at the Department of New Media and Communication Theory, Faculty of Journalism, Baku State University; Baku, Azerbaijan
E-mail: rehilekesemenli2@gmail.com
https://orcid.org/0009-0009-0945-2453

**To cite this article:** Kasamanli, R. [2025]. The Thematic Scope of Classical Azerbaijani Publicism. *“Metafizika” journal, 8*(2), pp.129-142.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.129-142

***Article history:***
*Received: 23.01.2025*
*Accepted: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070.
**ББК:** 76.01; 76.02
**MJ №** 273
10.33864/2617-751X.2025.v8.i2.129-142

# Тематический Круг Классической Азербайджанской Публицистики

**Рахиля Касаманлы***

**Абстракт.** Публицистика, как и ряд других видов литературно-художественного творчества, В какой-то период приобретает классическую сущность и превращается в объект пристального внимания исследователей разных времен. Изучение этого вопроса показывает, что азербайджанская публицистика конца XIX - начала XX века по нескольким важным направлениям всегда носила классический характер. И именно по этой причине сегодня она стала И общественно-политического фактом научно-теоретического мышления. Если окинуть взглядом масштаб соответствия классической публицистики нашему времени, то можно заметить, что советская идеологическая машина, которая всегда опасалась любого проявления национально-освободительных идей, всегда держала публицистическое творчество под своим строжайшим контролем. Современная азербайджанская публицистика зиждется прочных традициях, заложенных национальной классической школой. И сегодня большинство наших современных публицистов в своей повседневной творческой деятельности продолжают руководствоваться такими принципами этой школы, как тематическое богатство, особенности художественного мастерства, беспристрастное отношение к событиям и фактам и др.

**Ключевые слова:** национальная власть, демократическое развитие, свобода, политика, пресса

* Кандидат филологических наук,
Преподаватель кафедры Новой медиа и теории коммуникации факультета Журналистики Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: rehilekesemenli2@gmail.com
https://orcid.org/0009-0009-0945-2453

**Цитировать статью:** Касаманлы, Р. [2025]. Тематический Круг Классической Азербайджанской Публицистики. *Журнал «Metafizika», 8(2),* с.129-142.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.129-142

***История статьи:***
*Статья поступила в редакцию: 23.01.2025*
*Отправлена на доработку: 26.02.2025*
*Принята для печати: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070.
**KBT:** 76.01; 76.02
**MJ №** 273
10.33864/2617-751X.2025.v8.i2.129-142

# Klassik Azərbaycan Publisistikasının Mövzu Dairəsi

**Rəhilə Kəsəmənli***

**Abstrakt.** Bildiyimiz kimi, publisistika real həyat hadisələrini, aktual ictimai-siyasi məsələləri sosial tədqiqlər vasitəsi ilə fərdi düşüncəni əks etdirən ifadə formasıdır. XIX-XX əsr Azərbaycan publisistikası ideya və istiqamətinə görə, əsasən, maarifçilik və milli oyanış mövzularına yönəlmişdir. Bu dövrün publisistikası, sosial problemlərin işıqlandırılması, milli kimliyin formalaşması və maarifçilik ideyalarının yayılması məqsə dini güdmüşdür. fəsadüfi deyildir ki, milli mətbuatın tarixi rolu müstəqillik illərində rəsmən etiraf edilərək bildirilirdi: “Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir” [Azərbaycan milli mətbuatının yaradılmasının 125 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. “Xalq qəzeti”, 2000-ci il, 28 mart]. Həmin səbəbdəndir ki, klassik Azərbaycan jurnalistikasının və vətəndaş publisistikasının ənənələrinə maraq elmi- nəzəri əhəmiyyəti ilə yanaşı, həm də ümummilli ictimai-mədəni dəyəri ilə ön plana keçdi, çoxsaylı və çoxçeşidli ədəbiyyat əsərlərinin və publisistik irsin ilkin nümunələr əsasında, ideoloji yarlıqsız və təhrifsiz nəşri vacib məsələyə çevrildi. Azərbaycan müstəqillik əldə etdikdən sonra (1991) milli tarixin öyrənilməyən, yasaq olunan problemlərinə, irsi yarımçıq, birtərəfli, yalnız materialist, marksist leninei prinsiplərlə təhlil edilən ədəbiyyat və mətbuat xidmətlərinin yaradıcılığına elmi-nəzəri maraq daha da artdı. Azərbaycan publisistikası XX əsrin əvvəllərindəki səviyyəsi ilə heyrət doğurur. Həmin dövrdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, milli özünüdərk prosesinin güclənməsi, azərbaycançılıq ideyalarının qabardılması publisistikanın həm mövzu dairəsini, həm də sənətkarlıq keyfiyyətini yüksəklərə qaldırırdı. Müstəqilliyin ilk illərindən başlayaraq milli ədəbi-mədəni irsin, xüsusən də mətbuat və jurnalistikanın tarixinə baxışdakı yanlışlıqların, ziddiyyətli mülahizələrin, “ağ ləkələrin” aradan qaldırılması mühüm vəzifə kimi qiymətləndirildi.

**Açar sözlər:** milli hakimiyyət, demokratik inkişaf, azadlıq, siyasət, mətbuatt

* filologiya üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müəllimi; Bakı, Azərbaycan
E-mail: rehilekesemenli2@gmail.com
https://orcid.org/0009-0009-0945-2453

**Məqaləyə istinad:** Kəsəmənli, R. [2025] Klassik Azərbaycan Publisistikasının Mövzu Dairəsi. *“Metafizika” jurnalı, 8*(2), səh.129-142.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.129-142

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 23.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 26.02.2025*
*Çapa qəbul edilmişdir: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Zəngin tarixə malik Azərbaycan publisistikasının bütün zamanlar üçün müasirlik keyfiyyəti kəsb edən çox önəmli nümunələri mövcuddur. Bu nümunələr öz xarakteri ilə yarandığı zaman və sonrakı nəsillərə təsir qüvvəsi ilə, sənətkarlıq xüsusiyyətləri ilə həmişə istər tədqiqatçıları, istərsə də publisistikanın praktik yaradıcılıq istiqamətləri ilə məşğul olan hər kəsi daim maraqlandırmışdır. Zamanın sınaqlarından çıxan və həmişə müasirliyini təsdiq edən belə publisistika yaradıcılığı son jurnalistika araşdırmalarında "klassik publisistika" anlayışı ilə qiymətləndirilməyə başlamışdır [*Məmmədli C. Klassik publisistikamız: Azərbaycan publisistika antologiyası, Bakı, Şərq-Qərb. 2007. s.4-10*].

Həqiqətən də, yaranışından dünya jurnalistika məktəblərinə söykənən və bir sıra maraqlı nümunələrini meydana çıxaran Azərbaycan klassik publisistikası zaman keçdikcə daha çox önəm kəsb etməyə başlamışdır. Klassik milli publisistikamızın ictimai xarakteri, onun mövzu aləminin zənginliyi, zamanında qaldırdığı problemlər müasir günlərimizdə getdikcə daha da aktuallaşmaqdadır.

Əlbəttə, publisistikanın zamanla, dövrlə, gündəlik həyat hadisələrilə bağlılığı heç kəsdə şübhə doğurmur. Ancaq bu növ yaradıcılığın öz spesifikası ilə bərabər sənət dünyasının, yaradıcılıq fəaliyyətinin özünəməxsusluğuna xidmət edən keyfiyyəti də var. Bütün sahələrdə olduğu kimi publisistika yaradıcılığının da sənət səviyyəsinə yüksəldiyi məqamlar var. Azərbaycan klassik publisistikasını bu gün aktuallaşdıran ən ciddi səbəblərdən biri kimi onun sənətkarlıq keyfiyyətinin yüksəkdə dayanmasıdır. Azərbaycan klassik publisistikasının mətbuatla bağlı bünövrəsi də məhz bu cəhətləri ilə qoyulmuşdur. Bu gün postsovet məkanında, eləcə də Azərbaycanda çox aktual olan söz və mətbuat azadlığı, imperiya siyasətinə qarşı mübarizə demokratik dəyərlərin formalaşması və s. kimi onlarca məsələnin çox maraqlı ifadəsini XIX əsrin sonu, XX əsrin əvvəllərində meydana çıxan publisistikada daha mükəmməl görmək mümkündür. Hələ XIX əsrin ikinci yarısında H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov və "Əkinçi"nin digər aparıcı publisistləri bir çox başqa məsələlər kimi, demokratik mətbuatın səciyyəsi, qəzetin vəzifələri, mövzu dairəsi və s. haqqında görüşləri ilə çox böyük məsələlər qaldırmışlar" [*Mirəhmədov Ə. Birinci Azərbaycan qəzeti "Əkinçi", Bakı: "Arzasiya" press, 2005, s.6-7*].

Son iyirmi ilin tədqiqatçılıq təcrübəsi sübut edir ki, Azərbaycan mətbuatının, publisistika yaradıcılığının müasir mərhələsi C.Məmmədquluzadə, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli və b. sənətkarların yaradıcılıq məktəbinə müraciəti çox intensiv və müntəzəm xarakter almışdır. Belə bir şəraitdə klassik publisistikamızın müasir günlərimizdəki yerinin, yeni nəslin

tərbiyəsində rolunun, çağdaş ictimai-siyasi fikir məkanına təsirinin, yeni müstəqillik ideyasının gerçəkləşməsində onun misilsiz rolunun tədqiqi mühüm aktuallıq kəsb edir.

Azərbaycan bədii söz sənətinin publisistik məqamlarından qaynaqlanan, bəhrələnən klassik publisistikamız özünün sənətkarlıq xarakteri ilə də heyrət doğuracaq faktlara malikdir. Onun sənətkarlıq cəhətləri iki mühüm amillə ölçülə bilir. Birincisi, sənətkar, peşəkar publisist günün aktual problemlərini, ictimai maraq doğuran faktları seçməyi bacarır, ikincisi, bu problemləri ədəbi-bədii cəhətdən - janr, kompozisiya, konflikt və onun həlli üsulları, müəllif obrazı, tipikləşdirmə və s. kimi məsələləri əhatə edir. Birinci cəhət belə bir məsələ ilə də özünü göstərir ki, “*publisistika zamanın əsas ideyalarını mümkün qədər ətraflı və açıq ifadə edən yaradıcılıq növüdür*”. [*Məmmədli C. Jurnalistikanın müasir inkişaf meylləri, s. 262-263*]. Publisistika həyatın məhz indiki zaman üçün çox aktual olan problemlərinin müxtəlif aspektlərini əhatə edir, təhlilə çəkir, izah edir və s. Jurnalistikanın digər sahələrindən fərqli olaraq publisistika fəlsəfə koordinantlarına yaxın olub, qnesologiya, məntiq və psixologiyanın kəsişdiyi nöqtələrdən keçir. Azərbaycan klassik publisistikasının nümayəndələrindən olan Ü.Hacıbəylinin, C.Məmmədquluzadənin, Ö.F.Nemanzadənin, M.Ə.Rəsulzadənin, F.Köçərlinin Ə.Hüseynzadənin, N.Nərimanovun, və bir çox digərlərinin yaradıcılığında bu istiqamətdə aktual nümunələr çoxdur. Bu publisistlər günün vacib məsələlərini seçməyi bacarmışlar. Həm də onlar o qədər milli, azərbaycançı və o qədər Vətənə yanımlı olublar ki, nəinki yaşadıqları çağın, habelə sabahın, gələcəyin problemlərini də görməyi və onların publisistik həllini verməyi bacarmışlar.

Bu publisistikanın bir sıra sənətkarlıq məsələləri sırasında publisistin polemika ustalığı mühüm yer tutur. Nəzərə alsaq ki, həqiqətən “*ədəbiyyatın başqa janrlarında fərdi publisistik əsərlərdə mübahisə, polemika həlledici üslub keyfiyyətlərindəndir*” [*Hüseynov Ə. Sənət yanğısı. Bakı: Yazıçı, 1979, s.35*], onda bu üslubun M.Cəlil yaradıcılığında özünü göstərən məqamlarına xüsusi diqqət yetirmək maraqlıdır.

Güclü məntiqi, axıcılığı, təbiiliyi və müəyyən ölçü daxilində obrazlılığı özündə birləşdirən publisistikasında Ü.Hacıbəyov ictimai mühakimələrdən, məntiqi vurğudan, yeri gəldikcə bədii nida və sualdan, təzad və sinonimlərdən, bəzən də maraqlı müqayisə və bənzətmələrdən istifadə etməklə öz fikirlərini aydın nəzərə çarpdırır. Sənətkarın publisistikasını araşdıran A.Ağayev yazır: “Üzeyir Hacıbəyovun publisistik fəaliyyətinin məzmun dərinliyi, forma zənginliyi XX əsrin qabaqcıl jurnalistlərinin yaradıcılığı ilə, publisist əsərləri ilə müqayisədə daha qabarıq şəkildə nəzərə çarpdırır. XX əsrin əvvəllərində mətbuatda məhsuldar publisist yaradıcılığı göstərmiş jurnalistlərin, yazıçı-

publisistlərin hamısını Vətən, xalqın maariflənməsi, müstəqillik ideyaları birləşdirdiyi kimi, onların bu ideyalarının ədəbi gerçəkləşmə yolları, üsulları, uslubları da yaxın olmuşdur. Haqqında bəhs etdiyimiz Üzeyir bəyin “sadə, hamı üçün başa düşülən, doğma dildə yazılan, əsil milli koloritli əsərləri xalqın ruhuna çox yaxın idi”.

Böyük ədəbiyyatşünas alim və yazıçı Mir Cəlal Füzulinin sənətkarlığından bəhs edərkən göstərir ki, "Füzuli lirikasının sənətkarlıq, texnika və bədii xüsusiyyətlərinin öyrənilməsi və izahı bizim, demək olar ki, bütün klassik şeirimizin bədii sanbalının təyin məsələsidir. Çünki Şərq poeziyasında elə forma, üsul, janr, qayda yoxdur ki, Füzuli ona toxunmamış olsun [*Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan, 2004*]. Biz eyni fikri klassik dünya publisistikasının dərin qatlarına bələd olan və ölməz nümunələr yaradan C.Məmmədquluzaadə, Ü.Hacıbəyli, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi milli klassik publisistlərimi- zin yaradıcılığına da aid edə bilərik. Bu baxımdan XX əsrin əvvəllərində meydana çıxmış klassik publisistikamızın sənətkarlıq xüsusiyyətləri müstəqil, mükəmməl tədqiqat obyekti kimi daha geniş araşdırılmağa layiqdir.

Cəmi bir neçə klassik publisistika nümayəndələrindən də göründüyü kimi, yaradıcılığın bu növü XX əsrin əvvəllərində məktəb səviyyəsinə yüksəlmiş və bu gün də sənətkarlıq məktəbi səviyyəsini saxlamaqdadır. Bu publisistikanın müasir jurnalistlərimizin, ümumiyyətlə, publisistik yaradıcılıqla məşğul olan ziyalılarımızın fəaliyyəti təsiri indiki müstəqillik illərində də özünü göstərməkdə, irs-varislik əlaqələrinin saxlanmasına səbəb olmaqdadır.

Publisistikanın milli-ictimai mahiyyəti sovet dövrü tədqiqatlarında ona obyektiv qiymət verməyə imkan yaratmamışdır. Sovet ideoloji maşını onun xarakterini klassik publisistikanın mahiyyətini azaltmağa və kommunist ideologiyasının təbliğinə xidmət etməyə yönəltmişdir. Azərbaycanın yeni müstəqillik çağı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində meydana çıxan böyük publisistikanın əsl mahiyyətini açmağa, onu obyektiv qiymətləndirməyə şərait yaratmışdır. Bu gün Ə.Hüseynzadə, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ö.F.Nemanzadə, Ü.Hacıbəyli kimi publisistlərin yaradıcılığına qayıdış publisistikanın klassikliyini sübut edən faktdır. Çünki belə publisistika əbədiyaşar olub zaman keçdikcə daha böyük məzmun və məna daşıyır.

## 2.Klassik Azərbaycan publisistikasınn sənətkarlıq xüsusiyyətləri

Azərbaycan klassik publisistikası öz tematikası, mövzu dairəsilə həmişə maarifçiliyə, xalqın, millətin özünüdərk prosesinin güclənməsinə xidmət etmişdir. Azərbaycanın yaradıcı ziyalıları publisistik sözün gücünü daha çox qiymətləndirmişlər. Əlbəttə,"sözün təsir qüvvəsinin harda güclü olması zənni bu ziyalıları ədəbi yaradıcılığın bütün növlərini sınaqdan keçirməyə sövq

etmişdir". Bütün bunlar ise öz əksini mətbuatda tapmışdır. Ona görə də "millətin tərəqqisində, milli şüurun oyanışı və milli özünüdərk prosesində ... özünəməxsus yeri var". Publisistika, jurnalistika, bu sahəyə gec ayaq açsa da, ziyalılar yaradıcılığın bu növündən məhsuldar istifadə etmişlər.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Avropa caz, jurnal dunyasının yaratdığı imkanlar isə Azərbaycanın da qabaqcıl yaradıcı ziyalılarının sözü birbaşa ünvana çatdıran publisistikaya meylini güclədirdi. Publisist sözün H.Zərdabi, Ə.Ağaoğlu, Y.V.Çəmənzəminli, Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə... kimi elə ustalanı yetişdi ki, ədəbi yaradıcılığın C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, bu növü cəmiyyətdə ən güclü təsir vasitəsinə çevrildi. Bu böyük sənət fədailərini zamanın yetirdiyi mətbuat ortaya çıxardı. Çünki publisistikanın yeni qadir qüvvəsi yalnız mətbuat vasitəsilə özünü göstərə bilərdi. Çünki hər ölkənin mədəniyyətinin inkişafı onun ədəbiyyatının inkişafı ilə bağlı olduğu kimi, hər millətin siyasi vəziyyəti də onun mətbuat azadlığı ilə bağlıdır. Deməli, söhbət həm də azad mətbuatdan gedir.

Azərbaycanın yaradıcı ziyalılarının XX əsrin əvvəllərində publisistikaya güclü meyli məhz onların öz ideyalarını xalqa çatdırmaq işində məktəb səviyyəsinə yüksəldi, "Şərqi-Rus", "Həyat" kimi qəzetlərin, "Füyuzat", "Molla Nəsrəddin" kimi jurnalların ortaya çıxması ilə böyük vüsət aldı. "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında bütövlükdə mətbuatın, xüsusi olaraq "Molla Nəsrəddin” jurnalının xalq həyatındakı roluna verilən qiymət klassik publisistikanıza və publisistlərimizə verilən qiymət kimi dəyərləndirilə bilər: "Mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin” jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı... "Molla Nəsrəddin” dövrünün mühüm siyasi hadisələrinə əsas diqqət verir, milli oyanış prosesinə xidmət edirdi.

Bu tipli jurnallar və qəzetlər öz ətrafına ən fəal publisistləri toplayırdı. Əlbəttə, XX əsrin əvvəllərində Azərbaycan ədibləri hələ də bədii sözə, bədii sənətə önəm verirdilər. ancaq C.Məmmədquluzadə mollanəsrəddinçilər publisistikasının qüdrətini tez duydular və buna xüsusi diqqət yetirdilər.

Yuxarıda adlarını çəkdiyimiz ədiblərin jurnalistikadakı fəaliyyətləri sübut edir ki, publisistika özünü xalqa söz deməyin, milli ideyaları gerçəkləşdirməyin ən güclü vasitəsi kimi göstərən bir zamanda klassikləşir və onun problemə, mövzuya sənətkarlıq baxışı böyük məktəbə çevrilir.

Cəsarətlə demək olar ki, təkcə Molla Nəsrəddin ədəbi məktəbinin nümayəndələri özlərinin ölməz publisist əsərləri ilə ədəbi növün bu sahəsində şedevr sayılacaq yüzlərlə nümunələr ortaya qoymuşlar.

Adətən elmi ədəbiyyatda klassika epiteti daha çox yüzilləri, minilləri əhatə edən sənət nümunələrinə şamil edilir. Həqiqətən də klassika ona görə qiymətlidir ki, onun postulatları, kamil üslubu, böyük ideyaları və bu ideyaların sənətkarcasına ifadə tərzi yüzillərin həqiqətinə, aktual problemlərinə və nəhayət, bu yüzillərin sənət nümunəsinə çevrilir. Bədii söz sənəti bu statusu qazanmaqda xeyli əlverişli imkanlara malikdir. Publisistika da söz sənətidir. Lakin ədəbi yaradıcılığın bu növü daha çox günün aktual problemlərini qələmə aldığına görədir ki, ünvanlı, konkret zamana və məkana aidliyi ilə uzunmüddətli ömrə sahib olmur. Ancaq tarixi təcrübə sübut edir ki, hər şey sənətkardan, onun ifadə tərzindən, qaldırdığı problemlərin cəmiyyət həyatında gərəklik dərəcəsindən çox asılıdır. Bu mənada "qəzet bir gün yaşayır" məlum tezisi ətrafında mübahisə də etmək olar. Yəni, məsələn, XX əsrin əvvəllərində meydana çıxan qəzetimizin səhifələrində bəzən elə mövzular, elə bəşəri və xəlqi problemlər öz əksini tapmış və bu əsərlər elə böyük, qüdrətli qələm sahibinə məxsus olmuşdur ki, həmin qəzetlərin adını da, özünü də bu gün belə yaşatmaqdadır.

Bu mənada Azərbaycanın jurnal publisistikasının da bəşəri və əbədi yaşarılığını təmin edən faktlar çoxdur. "Şərqi-Rus", "Həyat", "Tərəqqi" qəzetləri günün aktual məsələlərini qoyurdusa, "Füyuzat", "Molla Nəsrəddin" kimi jurnallar uzunmüddətli strateji mövzuları gündəmə gətirirdi.

XX əsrin əvvəllərində yaşayıb-yaratmış publisistlərimizin yaradıcılığı bu günümüz üçün də çox aktual olaraq qalır. C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə. Hüseynzadə, Ə.Ağaoğlu... Bu böyük yaradıcı insanların adlarını sadaladıqca qurtarmır. Bu sıranı xalqa onun taleyi bəxş etmişdir. Bu xalqın ən ağır Ü.Hacıbəyov, M.Şaxtaxtlı, problemlərlə yükləndiyi çağında tale ona Cəlim Məmmədquluzadə kimi sözü birbaşa üzə deyən bir publisist yetirdi. Böyük Mirzə Cəlilin xalqa yanımlığı bütöv bir nəslin həyat amalına çevrilmişdir. Bu mənada "Cəlil Məmmədquluzadə Azərbaycanda milli istiqlal ədəbiyyatının bayraqdarı və sərkərdəsi", habelə əsərləri ilə bədii-ictimai fikir tarixində azərbaycançılıq ideologiyasını yeni vüsətlə ortaya qoyan bir sənətkardır. Doğru olaraq C.Məmmədquluzadə yaradıcılığı "dərin, mənalı və həyacanlı bir Azərbaycannamə" adlandırılır. Bu mənada ədibin publisistikanın şah əsəri olan "Azərbaycan" məqaləsi milli oyanış və siyasi intibah dövrünün ... manifestidir". Həqiqətən də "Azərbaycan” məqaləsi - xalqımızın müstəqil və demokratik dövlət quruculuğu prosesindəki ümummilli vəzifələrin publisistik tərcümanı, carçısı, vətəndaşlıq harayının ifadəsidir...

Bu məqalə Azərbaycanın vətəndaş ədibi Cəlil Məmmdəquluzadənin mahir qələmi ilə çəkilmiş coğrafiyasının nadir publisist xəritəsidir".

C.Məmmədquluzadə və Ö.F.Nemanzadənin yaratdığı "Molla Nəsrəddin” jurnalının publisistikası bir sıra cəhətləri ilə bu gün üçün daha aktual görünür. Çünki "Molla Nəsrəddin” və mollanəsrəddinçilər yatmış xalqı oyadır, özümüzü özümüzə tanıdır, azərbaycanlını kamil görmək istəyirdilər.

Mollanəsrədinçilərin informasiya sahəsində məhdud çoğrafi əraziləri olmamışdır. Xüsusilə "Molla Nəsrəddin” jurnalında onlar Şərq Dünyasında baş verən hadisələrə çox həssas yanaşmışlar. Onlar islam dünyasının tam müstəqilliyi, azad və sivil olması uğrundu geniş mübarizə aparmışlar. Mollanəsrəddinçilər jurnalda informasiyanı bəzən səviyyəsinə qaldırmışlar.

Şərq dünyasına münasibətdə publisistikamızın ayrıca yeri var. Müsəlman şərqi Azərbaycan publisistlərinin və xüsilə "Molla Nəsrəddin” jurnalının yaradıcılığında xüsusi yer tutmuşdur. Jurnalın yaradıcısı və ideya rəhbəri Cəlil Məmmədquluzadə publisistikasında Azərbaycan Şərqin Pakistan, Misir, İran və s. kimi müsəlman ölkələrinin inkişaf kontekstində təqdim olunur. Onun yaradıcılığının bütün məzmunu müsəlman dünyasının maariflənməsinə, inkişafına bağlıdır.

Cəlil Məmmədquluzadənin məslək dostu Ömər Faiq Nemanzadənin də publisistikasında Şərq mövzusu xeyli yer tutur. Xüsusilə "Şərqi - Rus" qəzetində bu mövzuya xeyli yer vermişdir. O, əlində imkanı olan, ürəyində xalqa məhəbbəti olanlardan çox şey umur və onları dəyişən dünyada millətin inkişafına kömək etmələrini istəyirdi".

Ömər Faiq Nemanzadə "Şərqi Rus"dakı bir məqaləsində Pakistanın inkişaf surətini onun millətə məhəbbəti olan insanların fəaliyyətində görürdü". Beləliklə, Azərbaycan publisistikası milli problemlərini ümummüsəlman və ümumxalq kontekstində götürərək, daha geniş yaradıcılıq fəaliyyəti göstərirdilər.

Dövrün publisist ziyalıları birləşməyi də bacarmışdılar. Ö.F.Nemanzadə - Mirzə Cəlil birgəliyi xalqın maariflənməsi işində misilsiz rol oynamışdır. Ömər Faiqin təkcə "Dərdimiz və dərmanımız" publisist yazısını oxumaq kifayətdir ki, onun bu günümüz üçün nə qədr aktuallıq kəsb etdiyi anlaşılsın.

Dünya publisistikası təcrübəsində yazıçının bu sahədəki fəaliyyəti bir sıra xüsusiyyətləri ilə seçilir. Yazıçı publisistikası bədii publisistikanın ən önəmli, ən ustad nümunələrini ortaya qoyur. Bu publisistikada yazıçı sənədli və birbaşa sənətkar sözünü bədii detallar, daha inandırıcı faktlar, oxucuya ünvanlanmış fakt, məzmun və bir sıra digər keyfiyyətlər, hətta bədii üslubu daha mükəmməl ehtiva edən stilistika, leksikon elementləri ilə kamilləşdirir, sənət səviyyəsini yüksəldir. Azərbaycan yazıçı publisistikasında da belə nümunələrin sayı çoxdur. XIX əsrin ortalarında M.F.Axundzadə ilə başlayan, N.Vəzirovla davam edən və XX əsrin əvvəllərində Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.S.Ordubadi, Ə.Haqverdiyev,

Ə.Qəmküsar, M.Ə.Möcüz və digərləri tərəfindən davam etdirilən yazıçı publisistikası milli özünüdərk, azərbaycançılıq prosesinin gücləndirilməsində mühüm rol oynamışdır.

Yusif Vəzir Çəmənzəminlinin "Kiyevdən məktublar"ındakı "Iki ailə", "Zəruri məsələlər", "Azərbaycan muxtariyyəti", "Milli və mədəni irslərimiz” kimi əsərlər bu tip publisistikanın yaxşı nümunələrindəndir. M.S.Ordubadinin Azərbaycanın müxtəlif bölgələrində soyqırm faktlarının canlı reportajları səviyyəsində bu gün də öz aktuallığını saxlayan əvəzolunmaz "Qanlı illər" əsəri təkcə sarsıdıcı və tarixin şahidlik faktına çevrilən sənədliliyi ilə deyil, həm də bu faktların insan hisslərinə təsir edən, insanı intiqama səsləyən və erməni vəhşətinin miqyasını göstərən üslubu ilə də xüsusi maraq doğurur. Yaxud Ü.Hacıbəyovun 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetində dərc etdirdiyi silsilə publisistik yazıları yazıçı publisistikasının ölməz nümunələridir.

Azərbaycanın müstəqillik əldə etməsi ilə klassik publisistikanın ən kəskin problemlər qoymuş nümunələri yenidən işıq üzü görməyə başlamışdır. M.S.Ordubadinin, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, Ü.Hacıbəylinin və başqa publisistlərin yenidən nəşr olunan əsərləri buna sübutdur.

Bu publisistika həmişə müasirdir, aktualdır, yeni yaradıcı ziyalılara ünvanlanan jurnalistika dərsləridir.

**3.Publisistik irsin yenidən nəşri məsələləri**

Publisistikanın görkəmli tədqiqatçısı F.Mehdi doğru qeyd edir ki, "Azərbaycan bədii publisistikanın qədim tarixi vardır. O, xalqımızın zülmə, istismara, dini fanatizmə, istibdada, tamahkarlıq, rüşvətxorluq, nadanlıq, yaltaqlıq, ikiüzlülük, laqeydlik və sairəyə qarşı mübarizə prosesində yaranmış və bu mübarizənin salnaməsinə çevrilmişdir... Bütün dövrlərdə müasirlik, yüksək ideyalılıq, kütləvilik, beynəlmiləlçilik bu publisistikanın əsas xüsusiyyətidir. Bu mənada Azərbaycan bədii publisistikası realist-demokratik və inqilabi özülə əsaslanmış, inki- şaf etmiş və formalaşmışdır".

Cəmiyyətimizin müasir inkişaf mərhələsində sözə, xüsusilə də publisist sözə maraq və tələb qat-qat artmışdır.Həqiqətən də Azərbaycan publisistikası həyatı dərk- etmə forması kimi böyük şair və yazıçıların qələmindən güc alıb yaranmış, ictimai mübarizədə ən qüvvətli, kəsərli təbliğat vasitəsinə və ideya silahına çevrilmişdir.

Belə bir elmi fikir də mövcuddur ki, klassik publisistika özündə fundamental problemləri ehtiva edir. Bu fundamentallıq sırasında milli-müstəqillik ideyası ilkin yerdə durduğuna görə 1970-1980-ci illərin sonlarından başlayaraq azadlıq hərəkatı məhz bu mövzuda publisistikanın yenidən üzə çıxarılmasına zəmin yaratdı. 1980-ci illərin sonlarından bu xarakterli klassik publisistik nümunələr ayrı-ayrı kitab və qəzet səhifələrində işıq üzü görməyə başladı.

Bundan sonra professor Ş.Qurbanovun Ö.F.Nemanzadə publisistikasını təhlil edən bir kitabı və publisistin yaradıcılığından bəhs etdiyi əsərləri işıq üzü gördü.

Alimin 1991-ci ildə çap etdirdiyi "Ömrün fikir dünyası" kitabı klassik yazıçı və publi- sistlərimizin əsərlərini təhlil etmişdir. Müəllif yazır ki, bu kitab "son vaxtlara qədər haqsız yerə unudulmuş, hətta adları belə ədəbiyyatımızın tarixində çəkilməyən, lakin öz dövrlərində çox böyük işlər görmüş ziyalılar haqqındadır".

Yazıçı publisist, vətəndaş jurnalist Osman Mirzəyevin tərtibatı ilə işıq üzü görən “Ağ ləkələr silinir" adlı kitab da taleyi dəmir senzuradan keçən və repressiyaya uğramış adamlarla bərabər bəzi publisistlərin də yaradıcılıq yolunu təhlil edir.

Minlərlə ağıllı, namuslu adamlarımızı yox edib, onların təkcə əsərlərinə, elmi və bədii irsinə deyil, yeddi arxa nəslinə də divan tutublar. Bu vicdan, inam qurbanlarının adı yazılası, xidməti təsvir ediləsi səhifələr tarix kitabımızda boş buraxılıb, ağ qalıb. Azərbaycanın publisistika ənənələrini yada salmaq, bu ənənələri müasirləşdirmək, üzərinə qadağalar qoyulan publisistikanı yenidən xalqa çatdır- maq əsl vətəndaşlıq işinə çevrildi. Belə bir vətəndaşlıq işinə ilk dəfə və fundamental şəkildə Bakı Dövlət Universitetinin professoru Ş.Hüseynov başladı. Son 20 ildə onun bu mövzuda 500-dən artıq məqaləsi, 4 kitabı işıq üzü görüb.

1980-ci illərin sonundan SSRİ-də başlayan yenidənqurma dövründə Azərbaycan xalqının milli özünüdərk prosesi gücləndi və belə bir vaxtda ilk yada düşən Azərbaycan Xalq Cümhuriyyəti və onun qurucusu M.Ə.Rəsulzadə oldu. Belə bir müstəqillik mücahidi haqqında çoxlu məqalələrlə bərabər, onun əsərləri də yenidən çap olunmağa başladı. 1990-cı ildə publisistin "Azərbaycan Cümhuriyyəti", 1992-ci ildə Ş.Hüseynovun tərtibatında əsərlərinin birinci cildi çapdan çıxdı. Publisistin bu kitablarında Azərbaycan istiqlalı ilə bağlı əsərləri toplanmışdır.

Son 20 ildə publisistikasına müraciət edilən, əsərləri yenidən çap edilən publisistlərdən biri də Əli bəy Hüseynzadədir. Onun əsas publisistikası XX əsrin əvvəllərində məktəb səviy- yəsinə yüksəlmiş "Füyuzat" jurnalında yayılmışdır. Jurnalın səhifələrində onun baş redaktoru Əli bəy Hüseynzadə ilə birgə Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Səid Səlmasi, Abdulla Şaiq, Əhməd Kamal, Əhməd Raiq kimi onlarla müəllifin müxtəlif mövzulu yazıları dərc edilirdi. Jurnal Azərbaycanda neoromantizmi yaradan mətbuat orqanı kimi xarak- terizə olunur.

Filologiya elmləri doktoru Ş.Vəliyevin "Füyuzat" ədəbi məktəbi" fundamental əsəri Ə.Hüseynzadə yaradıcılığını təhlil edən qiymətli monoqrafiyadır. Azərbaycan mətbuatı, ədəbiyyatı, ictimai fikir tarixində

"fuyuzatçılıq", "Füyuzat" ədədi məktəbi, "Füyuzat"çı fəlsəfi fikir cərəyanı və s. bu qəbildən olan ifadələrə tez-tez rast gəlmək olar. Sovet-belşevik-hakimiyyəti illərində ən çox hücuma məruz qalan saxtalaşdırılan mətbuat orqanlarından birincisi də məhz "Füyuzat", onun baş redaktoru Əli bəy Hüseynzadə və digər görkəmli "füyuzat"çılar idilər. Onların yaradıcılıq yolu ədəbiyyat, mətbuat, fəlsəfəyə xidmət, sosial kredoları azadlıq, milli tərəqqi naminə birliyə çağırış idi.

Bayrağımızdakı üç rəngin üçünün də rəssamı Əli bəydir. Belə bir böyük tarixi şəxsiy- yətin ədəbi -fəlsəfi irsinə yeni münasibət formalaşıb. Azərbaycan Respublikası AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri namizədi Ofeliya Bayramlı onun publisistikasını tədqiq edib. 1994-cü ildə Ofeliya xanım Ə.Hüseynzadənin 1908-1910-cu illər- də "İrşad", "Tərəqqi" və "Həqiqət” qəzetlərində hissə-hissə dərc edilmiş, "Siyasəti-fürsət” sərlövhəli oçerklərini toplayaraq ayrıca kitabça halında nəşr etmişdir.

Beləliklə, Əli bəy Hüseynzadənin publisistik irsi xeyli dərəcədə yenidən nəşr edilmişdir.

Klassik publisistikanı oxuculara çatdıran kitablardan biri Ü.Hacıbəylinin "Fitnələr qarşısında" kitabıdır. Bu kitabın maraqlı cəhəti ondadır ki, Ü.Hacıbəylinin 2 illik müstəqillik dövrünü əhatə edən əsərlərini oxucuya çatdırır.

Ü.Hacıbəylinin "Azərbaycan" qəzetinin nəşrində müstəsna xidmətləri, rolu və iştirakı olmuşdur. Qəzetə rəhbərlik etməklə Ü.Hacıbəyli onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycanın müstəqil respublika kimi möhkəmlənməsinə çalışmışdır.

O dövrdə müstəqil Azərbaycanın qəzeti olan "Azərbaycan" və onun müəlliflərinin yazıları çox qiymətli yer tutur.

Bu mənada Ü.Hacıbəylinin əsərlərini təqdim edən "Fitnələr qarşısında" kitabı yeni nəşrlər sırasında mühüm əhəmiyyət kəsb edir.

Ceyhun Hacıbəylinin 1993-cü ildə Fransadan gətirilən və Bakıda çap edilən "Seçilmiş əsərləri" publisistikaya dair yeni nəşrlər sırasına daxildir. Məlum səbəblər üzündən Azərbaycan xalqı uzun onilliklər müddətində C.Hacıbəyli haqqında məlumat ala bilməmişdir. Halbuki Azərbaycan mühacir mətbuatının çox böyük bir hissəsi onun adı ilə bağlıdır.

Kitabda C.Hacıbəylinin "Azərbaycan istiqlalının bərpası", "Azərbaycanda anti-islam təbliğatının metodları", "Rus demokratlarının bolşeviklərlə birləşdiyi məqamlar" və s. kimi əsərlər öz əksini tapmışdır.

Azərbaycan istiqlal əldə edəndən sonra jurnalistika ilə bağlı bu tipli kitablar işıq üzü görməyə başlamışdır və bu proses indi də davam etməkdədir. Xalq bu kitablar vasitəsilə öz publisistlərini tanımağa, qiymətləndirməyə başlamışdır.

**4.Nəticə**

Müasir jurnalistikaya klassik publisistikanın təsir gücünün araşdırılması belə bir nəticəyə gəlməyə əsas verir ki, XX əsrin əvvəllərində meydana gəlmiş publisistika məktəbləri bu günümüz üçün həm mövzu, həm də sənətkarlıq cəhətdən mühüm əhəmiyyət kəsb edir. Yeni müstəqillik uğrunda mübarizə aparan jurnalistlərimiz öz fəaliyyətlərində klassik publisistika ənənələrini məktəb kimi qəbul etmiş və etməkdədir.

Elmi-nəzəri müddəalardan bizim günlərimizdə də öyrənilib nəticə çıxarılacaq və əməli fəaliyyətdə istifadə ediləcək cəhətlər çoxdur. Əlbəttə, ən vacibi bu zəngin irslə tanışlıq, ona yiyələnmək ön plana çıxmalıdır. Müasir Azərbaycan mətbuatı bu vəzifəni qismən də olsa, yerinə yetirdi.

Beləliklə, deyə bilərik ki, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Azərbaycanın yeni müstəqillik uğrunda açıq mübarizə çağında klassik publisistikamızın bu mövzu ilə bağlı nümunələri aktuallıq kəsb etmişdir. Azərbaycanın müasir gənc oxucusuna məlum oldu ki, milli klassik publisistikamızın ağır çar və sovet senzura sistemi şəraitində yazıb-yaratdığı əsərlər bu gün üçün də böyük aktuallıg kəsb edir. Bu publisistikanın konkret mövzuları sırasında milli azadlıq ideyaları ayrıca yer tutur. Hər bir xalqın tarixində onun mətbuatı, bu mətbuat vasitəsilə millətə önəmli söz deyən publisistləri ciddi yaradıcılıq faktları ilə dünən də, bu gün də əhəmiyyətli ideyalar daşıyıcısıdır. Azərbaycanın çox böyük istedad, qeyrət və qələm sahibi olan şəxsiyyətləri tərəfindən nəşr və idarə edilən mətbuat orqanları səhifələrində təkcə öz dövrü üçün deyil, bu günümüz və gələcəyimiz üçün də lazımlı və faydalı fikir xəzinəsi hifz edilməkdədir.

Mətbuatımızın keçdiyi uzun və zəngin yol, öz inkişafında və demokratik cəmiyyət quruculuğunda mühüm bir mərhələni təşkil edir, xalqın milli iradəsinin, mədəni dəyərlərinin və azadlıq ideyalarının ifadəsi kimi çıxış edir. Keçmişin çətinliklərini və müasir dövrün çağırışlarını uğurla aşan mətbuatımız, bu gün də cəmiyyətin inkişafına xidmət etməkdə davam edir.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan Respublikası Prezidentinin fərmanı. (2000, mart 28). Azərbaycan milli mətbuatının yaradılmasının 125 illiyi haqqında. *Xalq qəzeti*.
**2.** Aslan, K. (1995). *Açılmamış səhifələr: Ü. Hacıbəylinin “Fitnələr qarşısında” kitabına ön söz*. Bakı.
**3.** Aşırlı, A. (2009). *Azərbaycan mətbuat tarixi*. Bakı: Elm və Təhsil, 296 s., s.6.
**4.** Mirəhmədov, Ə. (2007). *Klassik publisistikamız: Azərbaycan publisistika antologiyası*. Bakı: Şərq-Qərb, 4–10.

**5.** Mirəhmədov, Ə. (2005). *Birinci Azərbaycan qəzeti "Əkinçi"*. Bakı: Arzasiya Press, 6–7.
**6.** Mir Cəlal. (2004). *Azərbaycanda ədəbi məktəblər*. Bakı: Ziya-Nurlan.
**7.** Məmmədli, C. (n.d.). *Jurnalistikanın müasir inkişaf meylləri*. s. 262–263.
**8.** Məmmədli, C. (2007). *Azərbaycan publisitikası antologiyası*. Bakı: Şərq-Qərb, 688 s., s.4.
**9.** Mehdi, F. (1982). *Bədii publisitika*. Bakı: Maarif, 296 s.
**10.** Hüseynov, Ə. (1979). *Sənət yanğısı*. Bakı: Yazıçı, s.35.
**11.** Qurbsanov, Ş. (1991). *Ömrün fikir dünyası*. Bakı: Yazıçı, 320 s.

## REFERENCES

**1.** President of the Republic of Azerbaijan. (2000, March 28). On the 125th anniversary of the establishment of the Azerbaijani national press. *Xalq newspaper*. (in Azerbaijani)
**2.** Aslan, K. (1995). *Unrevealed pages: Foreword to U. Hajibeyli's book "In the Face of Conspiracies"*. Baku. (in Azerbaijani)
**3.** Ashyrly, A. (2009). *History of the Azerbaijani press*. Baku: Elm ve Tehsil, 296 p., p.6. (in Azerbaijani)
**4.** Mirahmadov, A. (2007). *Our classical journalism: Anthology of Azerbaijani journalism*. Baku: Sharq-Garb, 4–10. (in Azerbaijani)
**5.** Mirahmadov, A. (2005). *The first Azerbaijani newspaper "Akinchi"*. Baku: Arzasiya Press, 6–7. (in Azerbaijani)
**6.** Mir Jalal. (2004). *Literary schools in Azerbaijan*. Baku: Ziya-Nurlan. (in Azerbaijani)
**7.** Mammadli, J. (n.d.). *Modern development trends of journalism*, 262–263. (in Azerbaijani)
**8.** Mammadli, J. (2007). *Anthology of Azerbaijani journalism*. Baku: Sharq-Garb, 688 p., p.4. (in Azerbaijani)
**9.** Mehdi, F. (1982). *Artistic journalism*. Baku: Maarif, 296 p. (in Azerbaijani)
**10.** Huseynov, A. (1979). *The passion of art*. Baku: Yazichi, p.35. (in Azerbaijani)
**11.** Qurbasanov, Sh. (1991). *The world of thought in a lifetime*. Baku: Yazichi, 320 p. (in Azerbaijani)